# CƏLİLABAD: el çalışır, yer sevinir

❒ ***Biz Cəlilabad şəhərinin dördyol deyilən hissəsinə çatar-çatmaz sol şaxədən üzüaşağı kəndlərə doğru geniş şəkildə torpaq işləri görüldüyünün şahidi olduq. Elə oradaca rayon icra hakimiyyətinin başçısı Əziz Əzizovla görüşdük. O dedi ki, uzunluğu 12 kilometr olan bu yolun hər iki başında işlərə start verilib. Hamarlama və bərkitmə üzrə tədbirlər görülür. Sonra 8 metr enində yola çınqıl töküləcək. Havalar düzələndə isə asfalt döşənəcək. Buradan Böyük İpək yolunun Muğan qoluna çıxış təmin ediləcək. Hazırda stansiya istiqamətində körpülər salınır.***

Yolun həmin hissəsinə də getdik və mən bir-iki şəkil çəkdim. Eramızdan əvvəl II əsrdən yaranaraq XVI əsrə qədər fəaliyyət göstərmiş Böyük İpək yolu ilə müxtəlif istiqamətlərə daşınan ipək parça, ədviyyat, xalça, pambıq karvanları bir anlıq gözlərim önündə canlandı. İndi ölkəmizdə pambıqçılığın, baramaçılığın inkişafına göstərilən dövlət qayğısının necə dərin köklərə bağlı olduğunu düşündüm. Beləcə, yaddaşımın qaranlıq guşələri işıqlandı...





Uzuntəpə kəndi Muğan düzünün ən qədim məntəqələrindəndir. Arxeoloqlar buradakı "qocaman" abidələr barədə geniş bilgilərə malikdirlər. Kəndin tarix müəllimi Ələsgər Mirzəzadə uzun müddətdir ki, bu yerlərin tarixini araşdırır. Bu barədə "Muğan" adlı kitab da yazıb. O deyir ki, Cəlilabadın bir çox kəndləri kimi, Uzuntəpə də yeraltı-yerüstü tarixi və mədəniyyət abidələri ilə zəngin olan açıq muzeydir. Altı il əvvəl Milli Elmlər Akademiyasının bir qrup alimi də kəndə gələrək kəşfiyyat işləri aparıb və maddi-mədəni nümunələri aşkar ediblər. Kənddə eyniadlı Uzuntəpə, eləcə də Qoşatəpə və Cəngitəpə kurqan abidələri üzə çıxıb. Buradan aşkarlanan müxtəlif məişət alətləri əkinçi-maldar tayfalarının ta qədim dövrlərdən Muğanda məskunlaşdıqlarını göstərən sübutdur.





Türkiyənin Sivas şəhəri həndəvərində də Uzuntəpə adlanan köhnə məhəllə var. Amma Cəlilabadın Uzuntəpəsi rayonun ən iri yaşayış məntəqələrindəndir: on mindən çox əhalisi var. 150 ilə yaxın bir dövrdə bu kənd Novoqolovka adlanıb. 19-cu əsrin ortalarında Rusiyadan buraya molokanlar köçürülüb və son vaxtlara qədər burada yaşayıblar. Yaşlı sakinlər Qaqarin, Çapayev, Kabanovka, Çkalovka, Alpaşa kimi küçə adlarının da olduğunu yaxşı xatırlayırlar. Keçmiş novoqolovkalı Pyotr Dudin bir müddət mənim doğma şəhərim olan Sumqayıtda yaşayıb, hazırda Tolyatti şəhərində məskən salıb. İstedadlı şairdir. Mən bu yazını çapa hazırlayarkən onun doğma kəndinə həsr etdiyi "Keçmişdən bir an" adlı şeirini rus dilindən tərcümə eləmişəm:

*Qanadları açıq qartal kimidir*
*Bu kənd Mişarçayın sahillərində.*
*Dəvətsiz qonaq gəl, çox səmimidir,*
*Ənənə yaşayır nəsillərində.*

Şair sonrakı misralarında poetik bir dillə Cəlilabad bazarında bir kisə günəbaxan tumunu sataraq on manata iki qaz alması, kəndin hay-küylü toylarını xatırlayır, həsrət dolu duyğularını ifadə edir.

Sovet dövründə Cəlilabadda üzümçülük genişlənən vaxtlarda buradakı dəmiryol stansiyasından Rusiyaya sisternlərdə minlərlə ton şərab göndərilirdi. Qorbaçovun yenidənqurması və alkoqolizmlə mübarizəyə dair fərmanı "sayəsində" üzümlüklər dağıdılmışdı. Elə molokanların kəndi tərk etmələri də bundan sonra başlanmışdı...

Qayıdaq Cəlilabadın bugününə.

Başa çatmaqda olan il rayonun tarixində əlvan rəngləri ilə qalacaq. İlin ən mühüm hadisəsi sentyabrın əvvəllərində Azərbaycan Prezidenti cənab İlham Əliyevin növbəti dəfə Cəlilabada səfər etməsi olub. Ölkə rəhbərinin xeyir-duası ilə Cəlilabad şəhərinin içməli su təchizatı sisteminin və kanalizasiya şəbəkəsinin, yenidənqurmadan sonra telekommunikasiya qovşağının, Cəlilabad-Astanlı-Cəngan-Soltankənd avtomobil yolunun, "Avanqard" MMC-nin dənli və paxlalı bitkilərin təmizlənməsi və qablaşdırılması müəssisəsinin, həmçinin "Günəşli-Aqro" MMC-nin aqroparkının açılışları olub. Səfərdən dərhal sonra cənab İlham Əliyevin sərəncamları ilə Cəlilabad şəhərində abadlıq-quruculuq işləri və çoxmənzilli binaların əsaslı təmiri, eləcə də Cəlilabad-Yardımlı avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədilə 6 milyon manat vəsait ayrılıb. Fərəhlidir ki, Cəlilabadda aparılan abadlıq-quruculuq işləri uzaq kəndləri də əhatə edir. Uzuntəpə kəndi də istisna deyil.

Burada camaatın əsas məşğuliyyəti taxılçılıq, kartofçuluq və heyvandarlıqdır. Ötən il rayon üzrə 500 hektar, bu kənddə isə 80 hektar sahədə pambıq əkilib və uzuntəpəlilər 160 tondan çox məhsul götürüblər. Əvvəllər də bu kənddə tut bağları çox olub, indi bərpa edilir. Artıq 10 hektarlıq ərazidə ağaclar budanıb, 3 min ting əkilib. Göründüyü kimi, baramaçılığın inkişafı üçün geniş işlər görülür. Ötən il kümçülər 200, bu ilsə 245 kiloqram barama əldə etmişlər, bu rəqəm get-gedə daha da artacaq. Kümçülərdən məhsulu Saatlıdakı qəbul məntəqəsi təhvil alaraq "Şəki İpək" ASC-yə göndərir.

Uzuntəpə yaxınlığında rayonun su-kanalizasiya sisteminin çəkilişi tamamlanmaqdadır. Hazırda tikilən sutəmizləyici qurğular gələn yazda istifadəyə veriləcək.

Bu yerlərdə qabiliyyətli adamlar az deyil. Onlardan biri, Uzuntəpənin sakini, ixtisasca mühəndis olan Təvəkkül Nəsirov qeyri-adi traktor düzəltmişdir. O, yeni traktoru yığmaq üçün 10-a yaxın avtomobilin ehtiyat hissələrindən istifadə edib. Traktorun ilkin variantının hazırlanmasında "VAZ-2106" markalı minik avtomobilin mühərrikindən və "QAZ-53" markalı yük avtomobilin sürət qutusundan yararlanıb. Sonralar o, traktorun gücünü artırmaq üçün hərbi avtomobillərin ehtiyat hissələrini də mühərrikə əlavə edib. Minik və yük avtomobillərinin ehtiyat hissələrindən ərsəyə gələn traktora sahibi "Azərbaycan" adını verib. Kiçik ölçüdə olması bu texnikaya həyətyanı sahədə rahat manevretmə imkanı verir. Yeni texnika qoşqusu ilə birlikdə 6 ton yükgötürmə qabiliyyətinə malikdir.

Kəndin sayğılı sakinlərindən biri də Mirsalman Əsgərovdur. Ondan kənddə təhsilin vəziyyətini soruşdum. Dedi ki, ərazidə dörd məktəb fəaliyyət göstərir, müəyyən uğurları da var. Birlikdə Uzuntəpə kənd 1 nömrəli tam orta məktəbinə getdik. Yadıma düşdü ki, bir neçə il öncə mən bu məktəbdə olmuşam. O vaxt Cəlilabad Uşaq-Gənclər İdman Məktəbinin voleybol müəllimi, Əməkdar məşqçi Vaqif Bünyatovun 60 illiyi ilə əlaqədar burada ümumrayon turniri təşkil edilmişdi. Başda Əziz müəllim olmaqla rayonun bütün rəhbər heyəti tədbirə qatılmışdı. Ona qədər voleybol komandası yarışda qüvvəsini sınayırdı. Mirsalman kişi dedi ki, elə həmin Vaqif müəllimin oğlu Raqif Bünyatov hazırda bu məktəbin direktorudur. Raqif müəllimlə görüşüb tanış olduq. Məktəb barədə ətraflı məlumat verdi. Ötən tədris ilinin sonunda məzunlardan 10 nəfərinin universitetlərə, 6 nəfərinin isə orta ixtisas məktəblərinə qəbul edildiyini bildirdi. Yuxarıda adı çəkilən tarix müəllimi Ələsgər Mirzəzadə də bu məktəbdə çalışır.

Onu da öyrəndik ki, bu təhsil ocağında riyaziyyat, iqtisadiyyat və humanitar təmayüllü 10-cu sinif yaradılıb və sinfə 29 şagird cəlb olunub. Təhsildə uğurların daha da artacağına inam böyükdür.

Ümid edirik ki, Uzuntəpənin uğur hekayələri də çoxalacaq. Şair Pyotr Dudinsə Sumqayıta gəldimi, onu mütləq doğma kəndinə görüşə aparacağam.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***